# Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq fənləri üzrə fənn imtahanının qiymətləndirmə sxemi
## (I - IV siniflər)

| | |
|---|---|
| 1 | A |
| 2 | D |
| 3 | B |

| | |
|---|---|
| 4 | **Maksimum bal: 6** |

Tapşırıqda 4 səhv buraxılmış idi:

| **Səhv** | **Olmalıdır** |
|---|---|
| Yayıldı bütün ölkəyə | Bütün ölkəyə yayıldı |
| Vali | vali |
| dənə | nəfər |
| Camaat onları şəhərə yola saldılar | Camaat onları şəhərə yola saldı |

**Səhvin tapılması**

- Aplikant buraxılmış səhvlərin hər birinin düzəldilməsinə görə bir müsbət „+" alacaq.

**Səhvlərin izahı və əsaslandırılması**

- Hər bir səhvin düzgün və tam şəkildə izahı və əsaslandırılmasına görə aplikant iki müsbətə „++" layiq görüləcək;
- Hər bir səhvin **qismən düzgün / natamam** şəkildə izahı və əsaslandırılmasına görə aplikant bir müsbətə „+" layiq görüləcək;

| |
|---|
| ++ İkinci dərəcəli üzvlərin iştirakı ilə qurulan geniş cümlədə xəbər cümlənin sonunda gəlir. Cümlədə söz sırası pozulmuşdur. |
| ++ Xüsusi isimlər böyük, ümumi isimlər kiçik hərflə yazılır. Ümumi isim məntiqi vurğu və ya xüsusi məqsədlə nəzərə çatdırılmayıb. |
| ++ İnsan anlayışı bildirən isimlərlə işlənən numerativ söz "nəfər", cansız əşya bildirən isimlərlə işlənən numerativ söz "dənə" olmalıdır. |
| ++ Mübtəda və xəbər şəxsə və kəmiyyətə görə uzlaşmalıdır. Mübtəda tək olduqda xəbər də təkdə, mübtəda cəm olduqda xəbər də cəmdə olmalıdır. |

**Düz yazılmış sözün düzgün olmayan formada düzəldilməsi**

- Düzgün yazılmış hər bir sözün yanlış forma ilə dəyişdirilməsi halında aplikantın topladığı müsbətlərin sayı bir ədəd azalacaqdır.

Aplikant cəmi 12 „+" toplaya bilər.

| | |
|---|---|
| | Yazı işi toplanılmış müsbətlərin ümumi sayı ilə qiymətləndirilir: |

| Müsbət sayı | Qiymətləndirmə |
|---|---|
| 11 – 12 | 6 bal |
| 9 – 10 | 5 bal |
| 7 – 8 | 4 bal |
| 5 – 6 | 3 bal |
| 3 – 4 | 2 bal |
| 1 – 2 | 1 bal |

| 5 | **Maksimum bal: 2** |
|---|---|

**2 bal:**

Cümlədə yol verilən səhvi düzgün təyin edin:

✓ Yerin peyki Aydır, digərlərini bilmirəm.

Tam izah verilmişdir, müəllim bilməlidir ki xüsusi isimlər/ coğrafi və astronomik adlar böyük hərflə yazılmalıdır .

**1 bal:**

- Aplikat səhvi düzgün tapır/düzəldir, lakin səbəbi izah edə bilmir / yalnış izah edir.

**0 bal:**

**Aşağıda verilən şərtlərdən biri yerinə yetirilmişdir:**

- Səhv yanlış tapılmış və izah edilmişdir.
- Cavab verilməmişdir.

| | |
|---|---|
| 6.1 | B |
| 6.2 | C |

| 6.3 | **Maksimum bal: 2** |
|---|---|
| | **2 bal:** |

| | |
|---|---|
| | Doğru, inandırıcı, düzgün mülahizə verilmişdir; Personajın (Elinin) sözləri təsbit olunmuş və düzgün izah edilmişdir. Aplikantın cavabında Elinin başqalarından fərqlənməsi ilə qaynaqlanan hissləri açıq şəkildə oxunur / Elinin sözləri onun şəxsiyyətinə qarşı sinif yoldaşlarının və müəllimlərinin mənfi mövqeləri ilə şərtlənmişdir.<br><br>**1 bal**:<br>Personajın (Elinin) sözləri düzgün tapılmışdır, lakin təqdim olunmuş mülahizələr səthi və sxematikdir – aplikant 2-3 sözlə kifayətlənib.<br><br>**0 bal**:<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilib:**<br>• Personajın (Elinin) sözləri səhv təsbit olunmuşdur.<br>• Cavab verilməmişdir. |
| **6.4** | **Maksimum bal: 2** |
| | **2 bal:**<br>Doğru, inandırıcı, düzgün mülahizə verilmişdir; Personajın (Mister Danielin) mövqeyi təsbit olunmuş və düzgün izah edilmişdir. Aplikant Mister Daniel üçün fərqliliyin qəbuledilməsini dərk edir. Tolerantlıq, müxtəliflik, individualizm dəyərləri və Elinin görkəmliliyi sinif yoldaşları üçün qeyd olunan bacarıqlarının/mövqelərinin inkişafı üçün imkandır. Eyni zamanda aplikant Mister Danielin metodik yanaşması haqqında danışır.<br><br>**1 bal:**<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**<br>• Personajın (Mister Danielin) mövqeyi (ifadələrində nə nəzərdə tutduğu) düzgün tapılmışdır və cavabda Danielin metodik mövqeyi ilə bağlı aspektlər oxunur, lakin verilmiş mülahizə səthi və sxematikdir;<br>• Tapşırıq şərtinə əsasən qismən yaxşı, inandırıcı mülahizə verilmişdir.<br><br>**0 bal:**<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**<br>• Personajın (Mister Danielin) mövqeyi səhv təsbit olunmuşdur;<br>• Ümumi mülahizə verilmişdir – bu ifadə ilə Elinin və onun kimilərinin mühimliyi / xüsusiliyi görünür;<br>• Cavab verilməmişdir. |

| | |
|---|---|
| **7.1** | **Maksimum bal: 2** |
| | **2 bal:**<br>Doğru, inandırıcı, düzgün mülahizə verilmişdir; Metafora seçilmiş, təsbit olunmuş və izah edilmişdir. Aplikant onun şeirdəki bədii funksiyası haqqında düzgün mülahizə yürütmüşdür.<br><br>**1 bal:**<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**<br>• Metafora düzgün tapılmışdır, lakin aplikant onların şeirdəki bədii funksiyası haqqında danışmır;<br>• Metafora düzgün tapılmışdır. Aplikant onların bədii funksiyası haqda səthi / sxematik danışır.<br><br>**0 bal:**<br>**Aşağıdakı şərtlərin biri yerinə yetirilmişdir:**<br>• Məcazın növü səhv dərk olunub / mülahizə səhvdır;<br>• Cavab verilməmişdir. |
| **7.2** | **Maksimum bal: 2** |
| | **2 bal:**<br><br>Doğru, inandırıcı, düzgün mülahizə verilmişdir; Şairin fikri izah edilmiş və ümumiləşdirilmişdir. Aplikant, insan məişətinin ziddiyyətli şəklini dərk edir. Qeyd edir ki, hər şey öz yerində olduqda daha dəyərlidir. Bir tərəfdən, insan hər şeyə qadirdir, digər tərəfdən isə o, öz yerində olmadıqda pərişandır. Eyni zamanda, aplikant şeirdə verilmiş qayğıları ümumiləşdirir.<br><br>**1 bal:**<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**<br>Şairin fikri izah edilmişdir, lakin verilmiş mülahizə səthi və sxematikdir / ümumiləşdirilməmişdir / aplikant 2-3 sözlə kifayətlənmişdir.<br><br>**0 bal:**<br>**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**<br>• Şairin əsas fikri səhv tapılmışdır / mülahizə səhvdır;<br>• Cavab verilməmişdir. |

## Arqumentli esse

| Maksimum bal: 9 |
|---|
| **I. Məzmunun uyğunluğu***<br>*Yazı işi verilən mövzuya uyğundur və verilmiş məsələlərə cavab verir.*<br>**1 bal:** |

**Aşağıda verilən şərtlərdən biri yerinə yetirilmişdir:**

- Yazı işi tapşırığın tələblərinə cavab verir, uyğun olmayan mövzulara toxunmur;
- Yazı işi tapşırığın tələblərinə cavab verir, lakin uyğun olmayan məlumat da verilmişdir.

**0 bal:**

**Aşağıda verilən şərtlərdən biri yerinə yetirilmişdir:**

- Yazı işi tapşırığın şərtlərinə cavab vermir;
- Yazı işi tamamilə fərqli mövzuya toxunur;
- Yazı işi tapşırığın perifrazıdır;
- Yazı işinin yalnız kiçik bir hissəsi verilmiş mövzuya toxunur, lakin tapşırığın tələblərinə cavab vermir.

***Əgər tapşırıq birinci meyara əsasən 0 balla qiymətləndirilirsə, o başqa meyarlara əsasən yoxlanılmır.***

**II. Əsaslandırma**

*Məqalədə müəllifin mövqeyi müvafiq əsaslandırma ilə təqdim olunmuşdur, mülahizə inandırıcı, adekvat arqumentlər və misallarla dəstəklənmişdir.*

**2 bal:**

**Aşağıdakı şərtlərdən biri yerinə yetirilmişdir:**

Ardıcıl mülahizə verilmişdir, orijinal arqumentlər və ya misallar həm seçilmiş mövqeyi əsaslandırmaq, həm də ziddiyyətli fikrin tənqidi qiymətləndirilməsi üçün istifadə edilmişdir.

**1 bal:**

**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**

Ardıcıl mülahizə verilmişdir, orijinal arqumentlər və ya misallar həm seçilmiş mövqeyi əsaslandırmaq, həm də ziddiyyətli fikrin tənqidi qiymətləndirilməsi üçün istifadə edilmişdir. Tapşırığın tələbləri haqqında mülahizə yürütmə cəhdi verilmişdir, seçilmiş mövqeyi əsaslandırmaq və ya ziddiyyətli fikri tənqidi qiymətləndirmək üçün istifadə edilən arqumentlər və ya nümunələr səthi, birmənalı və inandırıcı deyildir;

**0 bal:**

**Aşağıdakı şərtlərdən biri yerinə yetirilmişdir:**

Tapşırığın tələbləri haqqında mülahizə yürütmə cəhdi verilmişdir, lakin arqumentlər və misallar təqdim edilməmişdir.

• Mülahizə məntiqli və ya ardıcıl deyil. Fikirlər misal və ya arqumentlərlə dəstəklənməmişdir və ya misallar və arqumentlər qeyri-adekvatdır;

• Mülahizə verilməmişdir.

** Mülahizə yürüdülən zaman faktiki səhvə yol verildiyi halda, ikinci komponentdə aplikantın 1 balı silinəcək.*

**III. Hekayənin təşkili**

*Yazı işinin strukturu düzgün, fikirləri nizamlı, ardıcıl təqdim olunmuşdur. Hekayənin hissələri məntiqi olaraq bir-biri ilə bağlıdır.*

**2 bal:**

- Mətn struktur olaraq düzgündür – yazı işində məsələ, mülahizə və nəticə qoyulmuşdur; Fikirlər nizamlı verilmiş, hissələr isə məntiqi olaraq bir-biri ilə bağlıdır; Abzaslar məntiqi olaraq bölünmüşdür.

**1 bal:**
**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**

- Məntin yalnız iki struktur hissəsi aydın təqdim olunmuşdur;
- Mətnin bəzi hissələri məntiqi olaraq tapşırığın şərti ilə əlaqəli deyil;
- Bir-iki pasaj hekayənin strukturundan kənardır;
- Təqdim olunmuş nəticə tapşırıqda qoyulmuş məsələyə aydın şəkildə / birbaşa əlaqələnmir, mülahizədən qaynaqlanmır;
- Eyni fikir funksiyasız şəkildə, bir məna kəsb etmədən təkrarlanır;
- Yazı işində abzasları qoyulmayıb və ya müvafiq qoyulmamışdır.

**0 bal:**
**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**

- Yazı işinin yalnız kiçik hissəsi mülahizəyə həsr edilmişdir (bir neçə cümlə, kiçik abzas və sairə);
- Fikirlər, mətnin böyük hissəsi bir-biri və tapşırığın şərti ilə əlaqələnmir;
- Bir neçə pasaj strukturdan kənardır;
- Yazı işində sadəcə mətnin bir hissəsi təqdim olunmuşdur.

**IV. Stil, leksika**

*Fikirlər aydın, açıq şəkildə ifadə olunmuşdur. Yazının leksikası zəngin və stili düzgündür. Leksika verlmiş suala uyğundur.*

**2 bal:**

- Yazı işində bir-iki əhəmiyyətsiz stil səhvlərinə rast gəlinir. Məntin leksikası zəngin, fikri isə yığcam və düzgün ifadə edilmişdir. Mövzuya  uyğun leksika və stildən istifadə olunmuşdur.

**1 bal:**
**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**

- Yazı işində bir neçə stil səhvlərinə rast gəlinir; İstifadə olunmuş leksika və stil, əsasən, mövzuya uyğundur;
- Mətnin leksikası kasaddır, lakin istifadə olunan leksika və stil, əsasən, məsələyə uyğun gəlir.

**0 bal:**
**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirilmişdir:**

- Mətn leksika baxımından kasıbdır;
- Stil səhvləri buraxılmışdır;
- Yazı işinin müəyyən hissələrində stil düzgün deyildir;
- Qeyri-müvafiq leksika / stildən istifadə edilmişdir.

**V. Sintaksis, Morfologiya, Punktuasiya**

*Yazı işi müasir Azərbaycan ədəbi dilinin normalarına riayət edərək yerinə yetirilmişdir.*

**2 bal:**

- **Bir-iki** orfoqrafik-morfoloji / punktual səhv buraxılmışıdır, sintaktik səhv buraxılmamışdır.

**1 bal:**

- **Beşdən çox olmamaq şərti ilə** sintaktik, orfoqrafik-morfoloji və punktual səhv buraxılmışdır.

**0 bal:**

- **Altı və daha çox** sintaktik, orfoqrafik-morfoloji və punktual səhv buraxılmışdır. Müasir Azərbaycan ədəbi dilinin normaları pozulmuşdur.

**Aşağıda verilmiş şərtlərdən biri yerinə yetirildikdə yazı işi yoxlanılmayacaq:**

- Yazı işi aplikantı müəyyən etmək üçün istifadə edilə biləcək– ad və soyad (əsl və ya uydurma), ləqəb, imza və s. kimi məlumatları ehtiva edir.
  - Elə əl yazısı ilə yazılıb ki, oxumaq mümkün deyil. Yazı işi ən azı 120 sözdən ibarət olmalıdır. Əks təqdirdə, yalnız I və II meyarlara uyğun olaraq yoxlanılacaqdır.

**Nəzərə alın!**

- Aplikant düzgün cavabla yanaşı səhv cavabı da göstərərsə, ona 0 bal verilir;
- Azərbaycan dili və ədəbiyyatı hissəsində tapşırıqların cavablandırılması zamanı müasir Azərbaycan ədəbi dilinin normaları pozulduqda, tapşırığın qiymətləndirilməsi zamanı aplikantın 1 balı silinir.